# Qonaqlar bu dəfə "Yeni Tərtər"in başına toplaşmışlar




**Tərtərdə rayonun ictimai, siyasi və iqtisadi həyatında mühüm rol oynayan, geniş oxucu kütləsi olan "Yeni Tərtər" qəzetinin 90 illik yubileyi təntənəli şəkildə qeyd edilib.**

Yubiley tədbirində qəzetin kollektivi ilə yanaşı, rayon icra hakimiyyətinin başçısı Müstəqim Məmmədov, Milli Məclisin deputatı Sahib Alıyev, Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcid, Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin dekanı Vüqar Əliyev, universitetin Redaksiya - nəşriyyat işi kafedrasının dosenti, Rasim Süleymanov, Tarix fakültəsinin elmi işlər üzrə dekan müavini Kəmalə Nəcəfova, Ahıl Jurnalistlər Birliyinin sədr müavini Əminə Yusifqızı, Vətən Müharibəsi Qəhrəmanı, şəhid polkovnik Anar Əliyevin atası Vaqif Əliyev, yolu "Yeni Tərtər" qəzetindən keçən tanınmış jurnalistlər, Bərdə, Zaqatala, Goranboy, Ağdam, Ağcabədi rayonlarında nəşr olunan qəzetlərin redaktorları, şəhid bacısı, həkim Məhəbbət Paşayeva, qəzetin keçmiş işçiləri, rayon ziyalıları iştirak etmişlər.

Tədbir iştirakçıları öncə Ulu Öndərin abidəsini ziyarət edib, önünə gül dəstələri düzmüşlər. Sonra onlar redaksiyanın tarixini əks etdirən fotostendlərə, redaksiya əməkdaşlarının kitablarından ibarət sərgilərə baxmış, qəzetin müxtəlif illərdə nəşr edilmiş nömrələri ilə tanış olmuşlar.

Yubiley tədbiri rayon icra hakimiyyətinin akt zalında davam etmişdir. Qəzetin redaktoru Svetlana Bağırova "Yeni Tərtər"in keçdiyi tarixdən danışmışdır. Bildirmişdir ki, 1934-cü ildə Tərtərdə nəşr olunmağa başlayan qəzet "Kolxozçuların varlanması yolunda" adlanıb. Həmin vaxt Tərtər rayon MTS-in siyasi şöbəsinin orqanı olan qəzet həftədə bir dəfə kiçik tirajla çıxıb. Sonrakı illərdə adı bir neçə dəfə dəyişdirilmiş qəzet 2005-ci ildən "Yeni Tərtər" adı ilə nəşr olunur.

Çıxış edən qonaqlar qəzetin kollektivinə, oxucularına öz təbriklərini çatdırmışlar. Çıxışlarda bölgə qəzetlərinin rastlaşdığı çətinliklərdən də söhbət açılmış, bu çətinliklər ucbatından bəzi rayon qəzetlərinin fəaliyyətlərini dayandırdığı, bəzilərinin çox az tirajla ayda bir dəfə nəşr edildiyi qeyd olunmuşdur. O da bildirilmişdir ki, bütün çətinliklərə sinə gərərək öz fəaliyyətini davam etdirən "Yeni Tərtər"ə rayon rəhbərliyi tərəfindən həmişə diqqət və qayğı göstərilir. Bu maddi və mənəvi dəstək qəzeti susmağa qoymur.

Tədbiri Rayon İcra Hakimiyyətinin başçısı Müstəqim Məmmədov yekunlaşdıraraq qəzetin kollektivini yubiley münasibətilə təbrik etmiş, kollektivə yeni yaradıcılıq uğurları arzulamışdır. Sonra o, qəzetin əməkdaşlarına rayon icra hakimiyyətinin fəxri fərmanlarını, redaktoruna isə Prezidentin sərəncamı ilə təltif olunduğu "Heydər Əliyevin 100 illiyi (1923-2023)" yubiley medalını təqdim etmişdir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2024.-7 may, №93.- S.10.